# SLESARYOV MİXAİL ALEKSANDROVİÇ



Slesaryov Mixail 8 may 1955-ci ildə Rusiyanın Smolensk şəhərində anadan olmuşdur. 1970-ci ildə Smolensk şəhər 4 saylı orta məktəbin səkkizinci sinfini bitirdikdən sonra təhsilini 19 saylı texniki peşə məktəbində davam etdirmişdir. 1971-ci ildə Smolensk Kənd Təsərrüfatı Texnikası Birliyində traktorçu-maşinist kimi işləməyə başlamışdır. 1975-ci ildə sovet ordusu sıralarına çağırılmışdır. 1977-ci ildə xidmətini başa vuraraq göndərişlə Tbilisi Gizirlər məktəbinə daxil olmuşdur. Məktəbi bitirdikdən sonra Bakıya qayıdan Mixail Slesaryov 1981-86-cı illərdə motoatıcı tağımın komandiri, 1986-99-cu illərdə mühafizə tağımının rəisi vəzifələrində işləmişdir. 7 yanvar 1999-cu ildə Mixail Slesaryov xidməti vəzifəsini yerinə yetirərkən Qobustan həbsxanasında axşamüstü bir dəstə məhbus mühafizəçini tərksilah edərək həbsxanadan qaçmağa çalışır. Mixail Slesaryov baş vermiş hadisənin qarşısını almaq üçün cəld əməliyyat qrupu yaradır. Əməliyyat çox uğurlu keçir. Qiyamçılar yerində oturdulur. Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 1999-cu il tarixli 73 saylı Fərmanı ilə Slesaryov Mixail Aleksandroviç Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Göstərdiyi qəhrəmanlığa görə həmin il ona kiçik leytenant rütbəsi verilmişdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin hərbi hissəsində tağım komandiri vəzifəsində çalışmışdır. O, 12 aprel 2014-cü ildə vəfat etmişdir. Milli Qəhrəman Mixail Slesaryov Qobustanda dəfn olunmuşdur. Ailəli idi. İki övladı var.